# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №13 (53) • 30.05.2011

AzadliqRadiosu.az®

**«Eurovision» siyasi məhbuslarsız...** səh.3

E.Məmmədov: **"Ölkədə sistem dəyişikliyinin zamanıdır"** səh.4

Abel Məhərrəmov: **«BDU-ya Heydər Əliyevin adı verilə bilər»** səh.5

**Жена Каддафи дала телефонное интервью CNN** səh.7

İlham Əliyev: **«Korrupsiyaya qarşı mübarizə bəhrəsini verir»** səh.8

**Norveç şahzadəsi Bakıya niyə gəlir?** səh.10

**Dördüncü sinif imtahanında rüşvət iddiası** səh.11

## Neft Fondundan daha 2.7 milyard xərclənəcək



Dövlət büdcəsinin gəlirləri 3,5 milyard manata yaxın artırılıb. Bunun 2.7 milyard manatı Dövlət Neft Fondundan götürüləcək. Ekspertlər isə deyir ki, hökumət hər vəchlə neft pullarının daha sürətlə xərclənməsi istiqamətində kurs götürüb. səh.9

## Astarada YAP-a bina tikməyə müəllimlərdən pul yığılır?



*Astara rayon Qapıçıməhəllə kənd məktəbin müəllimi Əli Məmmədli deyir ki, pedaqoji işçilərdən pul toplanılır. Ona da bu barədə xəbərdarlıq edilib:* «Mən pul verməkdən imtina etdim. Müəllimliyə görə ayda 160 manat əməkhaqqı alıram. Bu nə puldur ki, bundan da haqq istəyirsiniz? Kim səsini çıxardır ona müxtəlif adlar qoyur, işdən çıxarırlar». стр.6

## Azadlığa çıxan Eynulla Fətullayevin efirdə dedikləri



«Bütün gecəni yatmamışam. Bu xəbər həm gözlənilən, həm də gözlənilməz oldu. Gözlənilən o idi ki, mən çoxdan azadlığa çıxmalı idim və ümumiyyətlə, həbsə düşməli deyildim. Gözlənilməz o idi ki, inanmırdım ki, belə tezliklə azadlığa buraxsınlar». səh.2

**Maarifçilik**



# Azadlığa çıxan Eynulla Fətullayev canlı efirdə nələri dedi?

## «Mən prinsiplərin pərəstişkarı olmuşam»


Eynulla Fətullayev AzadlıqRadiosunun «İşdən sonra» proqramında qonaq olub. 27.05.2011.

**Həbsdən çıxmış jurnalist Eynulla Fətullayev AzadlıqRadiosunun «İşdən sonra» proqramında qonaq olub. Eynulla Fətullayev canlı efirdə bunları söyləyib:**

**«HANSISA BİR İCTİMAİ XADİMİN HƏBSİ ADİLƏŞİB»**

«Bütün gecəni yatmamışam. Bu xəbər həm gözlənilən, həm də gözlənilməz oldu. Gözlənilən o idi ki, mən çoxdan azadlığa çıxmalı idim və ümumiyyətlə, həbsə düşməli deyildim. Gözlənilməz o idi ki, inanmırdim ki, belə tezliklə azadlığa buraxsınlar».

«Hər bir insanın sınma nöqtəsi var. Əgər insan məhrumiyyətlərlə üzləşir və prinsiplərindən imtina etmirsə, deməli, o, sınmır. Əgər insanın fiziki baxımdan sınmağı nəzərdə tutulursa, onda Nəsiminin də dərisini soymuşdular. Belə çıxır ki, Nəsimi də sınmışdı».

«Sabah Yeni Azərbaycan Partiyası liberal platformaya keçsə və yaxud Azərbaycanda köklü islahatları həyata keçirsə, onda Eynulla Fətullayev avtomatik olaraq YAP-ın tərəfdarı olacaq və beləliklə, o, sınacaq».

«Mən hansısa şəxsiyyətlərə pərəstiş etməmişəm. Mən prinsiplərin pərəstişkarı olmuşam».

«Ədliyyə sistemində Mədət Quliyev Pentensiar Xidmətin rəisi təyin olunandan sonra rüşvətxorluq aradan qaldırılıb. Amma oxuduqlarımdan bilirəm ki, digər sahələrdə korrupsiya ilə mübarizə dekorativ səviyyədən irəli getmədi».

«Bu gün əfsuslar olsun ki, hansısa bir ictimai xadimin həbsi adiləşib. Hamı buna adi bir hal kimi baxır. Mən həbs olunanda Azərbaycanda yarıdemokratik sistem, qlamur avtoritarizm mövcud idisə, bu gün rejim qlamurluğun itirib».

**«MƏNİM HEÇ BİR SİYASİ İDDİAM YOXDUR»**

«Mən, şübhəsiz, jurnalistika ilə məşğul olmaq istəyirəm. Əfsuslar olsun ki, bu gün Azərbaycanda jurnalistika ilə məşğul olmaq çox təhlükəlidir. Mən peşəkar jurnalistika ilə məşğul olmaq imkanını qazanacamsa, işləyəcəyəm. Əks təqdirdə, yəni mənə bu imkan və şərait yaradılmasa məcbur olub mühacirət edəcəm».

«Mirşahin adı və onun həyatı fiaskoya uğrayıb və belə adamların dedikləri mənə maraqlı deyil. O, həmişə yıxılanlara balta çalıb».

«Mən həbsdə olarkən də öz azadlığımı qoruyub saxlamışam».

«Elmar Hüseynovun ölümünün tədqiqi ilə bağlı hər şeyi demişəm».

«Həbsxanada ciddi təzyiqlərə məruz qalmışam».

«Təhlükəsizliklə yanaşı məni Azərbaycandan getməyə başqa bir şey də məcbur edə bilər. Bu özünüsenzuraya qapanmadır».

«İkinci dəfə həbsxanaya qayıtmaq çox ağrılıdır».

«Əlimdən gələni edəcəm ki, «Realnıy Azerbaydjan» və «Gündəlik Azərbaycan» qəzetlərinin fəaliyyətini bərpa edim».

«Azərbaycanda qalıb, amma jurnalistika ilə məşğul olmaya da bilərəm. Təki valideynlərimi bu əzabdan xilas edim. Çünki onlar çox əzab çəkirdi».

**«AVTORİTAR REJİMLƏRİN İNFORMASİYA SİYASƏTİ OLDUQCA SƏRTDİR»**

«Prezidentə şəxsi məktub yazmışdım. Ancaq əfv ərizəsini yazmadım».

«Mənim 34 yaşım var. Mən düşünmürəm ki, bu gündən sonra sənətimi və həyat tərzimi dəyişə bilərəm».

«Mətbuat vasitəsilə dövlət başçısından Bəxtiyar Hacıyevin , Cabbar Savalanlının və ümumiyyətlə, bütün siyasi məhbusların azadlığa buraxılmasını xahiş etmişəm».

«Həbsxanada məni öldürmək cəhdləri olub. Amma Allah bunun qarşısını alıb. İndi həmin adam dünyasını dəyişib».

«1 saylı cəzacəkmə müəssisəsinə məni təsadüfi göndərməmişdilər».

«Həbsxanalar feodal, orta əsrlik, zülmətdir. Orada insanlar haqsızdırlar. İnsanlara qarşı, yumşaq desək, atlar kimi davranırdılar. Mən özümü orta əsrdə hiss edirdim».

«Əvvəllər çox tələsirdim. Həbsxanada başa düşdüm ki, tələsmək lazım deyil, yaşamaq lazımdır. Bəzən gözləmək mövqeyində də durmaq lazımdır. Bəzən həyat öz axarı ilə getməlidir. Mən özümü bu qədər iradəyə sahib olacağımı düşünmürdüm».

**«AZƏRBAYCAN HÖKUMƏTİNİN YERİNDƏ OLSAYDIM MƏN DƏ EYNULLA FƏTULLAYEVİ NEYTRALLAŞDIRARDIM»**

«Bu regionda demokratiya hələ, əfsuslar olsun ki, uzun müddət həbsdə olacaq. 10-15 il mən demokratiyanın həbsdə olacağını gözləyirəm. Mən Azərbaycanda real dəyişiklikləri 2023-2025 – ci illərdə gözləyirəm».



«Azərbaycanda oliqarx yoxdur. Nazir oliqarx deyil. Olsa-olsa pludokrat ola bilər. Azərbaycanda elə bir nazir varmı ki, biz onu qəzetimizin səhifələrində tənqid etməyək».

««Eurovision»a tamamilə biganəyəm. Mən melomanam. Bu müsabiqə peşəkarların yarışması olmadığı üçün tənqidi yanaşıram».

«Azərbaycanda siyasi islahatlar başlasa, biz də o siyasi islahatlara dəstək verməyə hazırıq».

**Eynulla Fətullayevin dediklərinə AzadliqRadiosu.az saytında qulaq asa bilərsiniz.**

***Şahnaz Bəylərqızı, Kamran Mahmudov***

# Avropa Birliyi: "Hökmlərə təcili və ədalətli şəkildə təzədən baxılmalıdır"


Catherine Ashton

*"Mən Azərbaycanda insan hüquqlarına göstərilən münasibətdən narahatam" sözləri ilə başlayan bəyanatında Avropa Birliyinin Xarici Siyasət İdarəsinin rəhbəri Catherine Ashton bildirir ki, bu narahatçılığı onlarda mayın 4-də və mayın 18-də iki gənc fəalın -Cabbar Savalanlının və Bəxtiyar Hacıyevin barəsində verilən hökm doğurub. Catherine Ashtonunu bəyanatında deyilir ki, bu iki hadisə hüquqi proseduralarda siyasi motivlərə yol verildiyini göstərir. "Biz Azərbaycanda fundamental azadlıqlara dərin ehtirama çağırırıq" deyən Catherine Ashton eyni zamanda əlavə edib ki, Azərbaycanda qanunun ölkənin özünün də qəbul etdiyi beynəlxalq standartlara uyğun idarə edilməsinə zəmanət verməlidir.*

"Biz Azərbaycanı bu hökmləri təcili və ədalətli şəkildə yenidən nəzərdən keçirməyə çağırırıq". Bəyanatda deyilir. Avropa Birliyinin mayın 12-də insan haqlarının vəziyyətinə görə Azərbaycanı tənqid edən qətnaməsində də Cabbar Savalan və Bəxtiyar Hacıyevin işi ilə bağlı narahatlıq qeyd edilirdi.

# «Eurovision» siyasi məhbuslarsız...

**Bir qrup tanınmış ictimai xadim prezidentə müraciət edərək «Eurovision-2012» müsabiqəsini Bakıda siyasi məhbuslar olmadan keçirməyə çağırıblar. Həmin müraciətin müəlliflərindən olan politoloq Hikmət Hacızadə və hüquq müdafiəçisi Leyla Yunus prezidentə ünvanladıqları eyniadlı müraciət barədə danışırlar**

Hikmət Hacızadə:



- «Dünya indi elə qurulub ki, hər şeyin hər şeyə dəxli var. Siyasətlə məişət, musiqi, sənət hamısı birləşib. «Eurovision» musiqi müsabiqəsi deyil. Bu, siyasət, siyasi simpatiyalar konkursudur. Onun ən şirin yeri də səsvermədir. Bu, özfəaliyyət ansambllarının müsabiqəsidir. Yüksək səviyyəli musiqiçilər ora gəlmir. İnsanları kimin kimə səs verməsi daha çox maraqlandırır. Buna çoxsaylı insan baxır, müsabiqəni, iştirakçıları və ölkəni müzakirə edirlər, jurnalistlər isə bunlar haqda yazır. Azərbaycan haqqında belə hərtərəfli yazacaqlar. Biz dünyadan təcrid olunmuş bir ada deyilik və ya ola bilmərik. Biz dünya, inkişaf etmiş Avropa ilə bir yerdə olmalıyıq. Oradan gələn inkişaf siqnalları, yaşayış üsulları, yeni ideyalar Azərbaycanı da bəhrələnməlidir. Təcrid olunmuş ölkələr sönür, bataqlaşır. Biz qapalı cəmiyyət olsaq, uduzacağıq. Bizim düşmənlərimiz güclənəcək, torpaqlarımız da gedəcək...».

Leyla Yunus:



- « Bura gələn bu qədər qonaq görsə ki, demokratiya yoxdur, insan hüquqları tapdalanır, işgəncələrdən adamlar ölür, adamların əllərindən mülkiyyətləri alınır, onda, əlbəttə ki, biz çox uduzacağıq. Bizim iqtidarımız uzaqgörən olsa və bütün bu səhvləri düzəltsə, yaxşı olacaq. Ancaq məndə o qədər optimizm yoxdur. Amma çoxları ürəkdən inanır ki, bizim iqtidarımız uzaqgörəndir və «Eurovision» keçiriləndə görəcəklər ki, Azərbaycan inkişaf etmiş ölkədir...».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləyin:**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



R.Kobia: **«ARDNŞ prezidentinin açıqlaması Bakının yekun qərarı deyil»**



Qorxmaz Əsgərov: **Hakimiyyətin qala divarları**



**Tatarıstanda yalan detektorundan keçməyən məmur qovulur**



**Son üç ildə Ermənistanı 80 minə yaxın adam tərk edib**



**Azərbaycan sülh indeksində 122-cidir**

# Əfv, yoxsa azadlıqların tanınması?


Çingiz Qənizadə

**«Panorama» verilişində suallara deputat Çingiz Qənizadə və «Azadlıq» qəzetinin redaktoru Qənimət Zahid cavab verir.**

Qənimət Zahid:

**«ORADA 8 VİCDAN MƏHBUSU QALIR»**

- Əfv, amnistiya onun şamil olunduğu hər bir cinayət işlətmiş məhbusun üzərinə məsuliyyət qoyur. Yəni lütfkarcasına məhbusa dəyişməsi üçün şans verilir. Ancaq bizi daim presedentlər narahat edir. Mən əfvlə azadlığa çıxanda, Azərbaycan həbsxanalarında cəmi bir vicdan məhbusu qaldı - Eynulla Fətullayev. Ancaq indi Eynulla Fətullayev azadlığa çıxsa da, orada 8 vicdan məhbusu qalır. Bu presedentləri ortadan yığışdırmaq lazımdır.

*- Bu presedenti necə aradan qaldırmaq olar. Məhkəmələr müstəqil olsa, siyasi məhbus problemi yoluna qoyula bilərmi?*

Qənimət Zahid:

**«BU, ƏLAHƏZRƏT PADŞAHIN LÜTFÜ NƏTİCƏSİNDƏ BAŞ VERDİ»**

- Mən sizə bir nümunə deyəcəm. Bu günlər Azərbaycan məhkəmələrində belə bir olay baş verdi. Hakim məhkəmə nəzarətçisinə dustağın qandallarını açmağı tapşırdı, o isə bundan imtina etdi. Təsəvvür edirsinizmi, bir çavuş hakimə deyir ki, yuxarıdan mənə desinlər, sonra dustağın qandalını açım.


Qənimət Zahid

Bu, Azərbaycanda təkcə məhkəmə hakimiyyətinin yox, bütünlükdə hakimiyyətin olmadığının göstəricisidir. Təkcə məhkəmələrin müstəqil olması kifayət deyil. Hakimiyyətlər arasında dəqiq bölgü olmalıdır. Üstəlik, artıq çavuş da başa düşür ki, Azərbaycanda qanuni hakimiyyətlər yox, məchul göstərişlər önəmlidir. Belədə biz bir nəfər vicdan məhbusunun əfv olunmasına sevinəcəyik ki, bu, əlahəzrət padşahın lütfü nəticəsində baş verdi.

Çingiz Qənizadə:

**«İSLAHATLAR DAVAM ETMƏLİDİR»**

- Azərbaycanda məhkəmə hakimiyyətində problemlər var. Bunu tək jurnalistlər yox, elə rəsmilər də dilə gətirirlər. Hətta görüşlərinin birində prezident İlham Əliyev də məhkəmə hakimiyyətinin problemlərindən danışmışdı. Mən də razıyam ki, bu problemlər qalacaqsa, ədalətsiz qərarların verilməsi davam edəcək. Ancaq mən o fikirlə razı deyiləm ki, bütün tapşırıqlar Prezident Administrasiyasından verilir. Sadəcə, hakimlər özləri öz müstəqilliyini tanımalıdırlar. Bəzən onlar ədalətli qərarlar vermək istədikdə belə, heç onlara sifariş olmasa da, yuxarıların xoşuna gəlməyəcəklərindən ehtiyatlanırlar. Ancaq aparılan son islahatlar, yeni hakim korpusunun seçilməsi və cavan kadrların təmənnasız işə cəlb edilməsi vəziyyəti dəyişir. Belə hesab edirəm ki, bu islahatlar davam etməlidir.

***Babək Bəkir***

# Avropa Parlamenti əfv qərarının davamına ümid edir

Avropa Parlamentinin prezidenti Jerzy Buzek Azərbaycan və Ermənistan prezidentlərinin ölkədəki bir qrup siyasi məhbusu əfvlə bağlı fərmanlarını alqışlayıb. Mayın 27-də Avropa Parlamentinin yaydığı bəyanatda Buzek ümid edir ki, ifadə azadlığı, media plürazilmi və müxalifət və vətəndaş cəmiyyətiylə konstruktiv dialoq bundan sonra da davam edəcək və dərinləşəcək. Buzek Azərbaycanda jurnalist Eynulla Fətullayevin əfviylə bağlı deyib ki, bu, düzgün istiqamətdə atılan addımdır. Amma azərbaycanlı fəal Bəxtiyar Hacıyevin də həbs cəzası almasından dərin narahatlıq keçirirəm.



# E.Məmmədov: “Ölkədə sistem dəyişikliyinin zamanıdır”

**Həmsöhbətimiz 20 il Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması prosesinin fəal iştirakçılarından olmuş Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədovdur.**

*- Etibar bəy, Azərbaycan yenidən 20 ildir ki, müstəqildir, 20 ildən sonra müstəqillik barədə hansı fikirdəsiniz?*

- Müstəqillik böyük bir nemətdir ki, biz onu bir millət, xalq olaraq əldə etmişik. Ancaq millətin qarşısında duran hədəflər, necə deyərlər, hər dəfə dəyişir, daha da yüksəlir.

Əgər birinci mərhələ müstəqillik idisə, müstəqilliyin ardınca xalqın daha yaxşı yaşaması, daha sərbəst, daha güvənli olması üçün ölkədə sistemin dəyişməsinə ehtiyac var. Yəni biz müstəqilliyi Rusiya imperiyasından, Sovet rejimindən əldə etmişik və dəyişikliklər növbəti mərhələnin işidir.

*- Bəzən insanlar sovet dövrü ilə bağlı nostalji hisslər dilə gətirirlər. Deyirlər o dövrdə qanunlara daha yaxşı əməl olunurdu, təhsil daha mükəmməl idi, şikayətlərə daha tez reaksiya verilirdi və s. Buna necə baxırsız?*

- Mənim fikirlərimdən inciməsinlər, nostalji hisslər o insanlarda olur ki, onlar asıllıqda yaşamağa öyrənirlər, sərbəstliyə alışa bilmirlər. Daim bir ağa axtarırlar ki, onların yerinə olan vəzifələri həll eləsin. Sovet rejiminin, sovet sisteminin də əsas xüsusiyyəti o idi ki, xalqa deyirdi siz heç bir şey fikirləşməyin, əvəzinizə hər şeyi fikirləşirik və hər şeyi də həll edəcəyik. Çox insanlar ona öyrəşiblər və gözləyirlər ki, onların üzərinə düşən vəzifələri kimsə yerinə yetirəcək.

***Maarif Çingizoğlu***

# Novxanıda Respublika Günü qeyd edildi



**Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 93-cü ildönümü ilə əlaqədar müxalifət partiyaları və vətəndaş cəmiyyətinin fəalları Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət ediblər. AzadlıqRadiosunun müxbiri xəbər verib ki, tədbirdə 1000-dən çox adam iştirak edib. Cümhuriyyət banilərini anmaqla yanaşı, bu günə yönəlik «Azadlıq!», «İstefa!» şüarları səsləndirilib. Tədbir polisin nəzarəti altında keçirilib, heç bir qarşıdurma yaranmayıb.**

AXCP sədri Əli Kərimli, Müsavat başqanı İsa Qəmbər, cümhuriyyət tarixçiləri Nəsiman Yaqublu, Teyyub Qurbanlı, M. Ə. Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə çıxış edib.

**«RƏSULZADƏYƏ, ELÇİBƏYƏ OLAN MƏHƏBBƏT ŞƏKİLLƏR, HEYKƏLLƏRLƏ ÖLÇÜLMÜR»**

İsa Qəmbər bildirib ki, Müsavatın 100 illiyinin qeyd edildiyi bir mərhələdə bu bayramı qeyd etmək əlavə zövqdür. Partiya rəhbəri bildirib ki, xalqın inkişafının qarşısını heç kim ala bilməz:

«Təsdiq olunmuş bir həqiqətdir ki, məhəbbət şəkillərlə, hörmət, rəğbət heykəllə deyil. Rəsulzadəyə, Elçibəyə olan məhəbbət şəkillər, heykəllərlə ölçülmür. O məhəbbət insanların qəlbindədir. Onların fikri bizim şüurumuzdadır. Başa düşmədidirlər ki, bu xalqın inkişaf yolunun qabağını ala bilməyəcəklər. Bu heç kimə müyəssər olmayıb, imperiyalara, Stalinlərə. Onlar da qarşısını ala bilməyəcəklər».

*AXCP sədri Əli Kərimli* isə qeyd edib ki, Xalq Cümhuriyyəti Azərbaycan tarixinin ən şərəfli səhifəsidir. Onun fikrincə, azərbaycanlıların dünya miqyasında öyünəcəyi ilk şey Cümhuriyyətin 93 il əvvəl qurulmasıdır:

**«RƏSULZADƏYƏ QƏRƏZLİ MÜNASİBƏT DAVAM EDİR»**

«Rəsulzadəyə qərəzli münasibət davam edir. 45 milyona villa alanlar, xalqdan milyardlar oğurlayanlar pul tapmırlar ki, Rəsulzadəyə heykəl qoysunlar. Azərbaycanlıların pulları hesabına dünyada Azərbaycandan təbliğ olunası insan varsa, o da Məhəmməd Əmin Rəsulzadədir».

***Durna Səfərli, Sevinc Hüseynzadə***

# Abel Məhərrəmov: «BDU-ya Heydər Əliyevin adı verilə bilər»




*«Necə ola bilər ki, BDU-ya Heydər Əliyevin adı verilməsin. O, universitetin məzunu, fəxri doktorudur. Özü də dünya şöhrətli məzunudur. Üzeyir Hacıbəyovun adının konservatoriyaya verilməsi yerində olan addımdır. Heç kim deyə bilməz ki, niyə Qara Qarayevin və ya digərinin adını vermədi ora. Çünki korifey Üzeyir bəydir. Ad verilərkən ya gərək alim olsun, ya da korifey. Bununla bağlı bəzi məsələlər var ki, onu çox xırdalamaq istəmirəm. Rəsulzadə isə siyasi müstəvidə qəbul olunur, elm müstəvisində yox. O dövrdə cümhuriyyəti yaradanların əksəriyyəti Sarbon, Peterburq və digər universitetlərində təhsil almışdılar. Rəsulzadə isə yox. Amma onun vətəndaşlıq mövqeyi, siyasi baxışı digərlərindən qat-qat güclü olub».*

Abel Məhərrəmov dövlət tərəfindən müvafiq qərar verilərsə BDU-da Xalq Cümhuriyyətinin qurucularına həsr olunmuş kompleks abidənin yaradılmasını dəstəkləyəcəklərini bildirdi.

***Nüşabə Fətullayeva***



2 aprel aksiyası

# İctimai Palata iyunun 19-na mitinq təyin edib

Bu barədə İctimai Palatanın mayın 27-də keçirdiyi iclasda qərar qəbul olunub. Aksiyanın iyunun 19-da «Nərimanov» kinoteatrının qarşısında keçirilməsi qərara alınıb. Aksiya ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinə müraciət olunacaq. İctimai Palata razılıq verilib-verilməməsindən asılı olmayaraq aksiyanın keçiriləcəyini bildirir.

# "Azəriqazbank" dünya spam ticarəti şəbəkəsində

Azərbaycanda bir bank dünyadakı spam ödənişlərinin 60 faizini qəbul edir. ABŞ-da, Kaliforniyadakı iki araşdırmadaçı "Spam zəncirinin bütün halqaları" adlı araşdırmalarında belə deyirlər. Araşdırmanın həmmüəllifi, Kaliforniya Universitetində doktoranturada oxuyan Andreas Pitsillidis deyir ki, dünyada göndərilən bütün spamla (yəni tanımadığı şəxsdən gələn hər hansı malı reklam edən emaill) bağlı ödənişlərin 95 faizi 3 bank vasitəsilə edilir: Danmarka bankı, Karib dənizində West India adalarındakı bir bank və Azərbaycandakı "Azəriqazbank" vasitəsilə.

Araşdırmaçılar ümumilikdə spam emaillərini 3 qrupa ayırıblar: saxta dərmanlar, saxta kompyuter proqramları və saxta lüks malları biznesi. Pitsillidis deyir ki, spam yoluyla dərman preparatları satışının böyük hissəsi "Azəriqazbank" dakı hesabları vasitəsilə gerçəkləşdirilir: "Məsələn, Azərbaycanda yelrəşən bank vasitəsilə bütün gördüyümüz spamın 60 faizi ödənilir. Spam deyəndə 3 aya təxminən 1 milyard mesajdan danışırıq".

"AZƏRİQAZBANK" İTTİHAMLARA CAVAB VERİR: QANUNSUZ BİR İŞ GÖRMÜRÜK

**Yazının davamını AzadliqRadiosu.az saytından oxuyun.**

***İlkin Məmmədov***

# Astarada YAP-a bina tikməyə müəllimlərdən pul yığılır?


Əli Məmmədli

**Astara rayon Qapıçıməhəllə kənd məktəbin müəllimi Əli Məmmədli deyir ki, pedaqoji işçilərdən pul toplanır. Ona da bu barədə xəbərdarlıq edilib: «Mən pul verməkdən imtina etdim. Dedim ki, yaşıma görə məni müəllimlikdən çıxardacaqlar. Nə üçün pul verim? Müəllimliyə görə ayda 160 manat əməkhaqqı alıram. Bu nə puldur ki, bundan da haqq istəyirsiniz?».**

Ə.Məmmədli müəllimlərin bundan narazı olduqlarını, lakin susmağa üstünlük verdiklərini deyir: «Qorxurlar ki, iş yerlərindən olacaqlar. Kim səsini çıxardır ona müxtəlif adlar qoyurlar. İşdən çıxardırlar. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparıldığı bir vaxtda Astara rayonunda pul toplama kampaniyasını prezidentin özünə arxadan vurulan zərbə hesab edirəm».

**«PUL VERMƏYƏNDƏ...»**

Adının çəkilməsini istəməyən başqa bir müəllim isə deyir ki, məktəbin direktoru onlara pul barədə heç nə deməyib. Sadəcə, onun deməsinə görə, direktorun əlaltılarından biri elan edib ki, hər müəllim 10 manat verməlidir: «Soruşduq ki, bu nə üçündür? Dedilər YAP üçün bina tikirlər».

**«YAP RAYON TƏŞKİLATI ÜÇÜN BİNA İNŞA ETMƏYİ PLANLAŞDIRIBLAR»**

İctimai Palatanın Astara rayon şöbəsinin Əlaqələndirmə Şurası da bu barədə bəyanat verib. Bəyanatda deyilir: «Astaranın yeni icra hakimiyyəti başçısı büdcədən maliyyələşən idarə və təşkilatlardan, sahibkarlardan pul toplamaq barədə göstəriş verib. Təkcə təhsil şöbəsindən 80 min manat pul tələb edildiyini deyirlər. YAP rayon təşkilatı üçün bina inşa etməyi planlaşdırıblar. Yığılan vəsait binanın inşasına sərf olunacaq. Əslində icra hakimiyyəti başçısı öz səlahiyyətlərini aşır».

Bəyanatı imzalayanlardan biri Müsavat Partiyası rayon təşkilatının sədri Asən Həşimli bu barədə onlara çoxlu müraciət olunduğunu deyir:

**«ELƏ İDARƏ MÜDİRLƏRİ VAR Kİ, BU BARƏDƏ İŞÇİLƏRİNƏ HEÇ NƏ DEMİR»**

«Bizə deyirlər ki, adımızı çəkməyin. Buna görə də adlarını açıqlamırıq. Müəllimlər xahiş edir ki, onlara kömək edək. Rayonda 63 orta məktəb var, məktəblərdə 2000 min nəfərdən çox pedaqoji işçi çalışır. Hər məktəbə görə pul müəyyənləşdiriblər. Elə məktəb var ki, 1000 manat, eləsi var ki, 500 manat verməli olacaq. Digər büdcə təşkilatlarında da bu kampaniya gedir».

**«GÜNDƏLİYƏ GÖRƏ YIĞILAN PULDAN SÖHBƏT GEDİR»**

Qapıçıməhəllə kənd məktəbin direktoru Təbriz Məmmədov isə müəllimlərdən pul yığılmadığını deyir: «Ola bilsin ki, gündəliyə görə yığılan puldan söhbət getsin. Başqa məqsədlərlə pul toplanmır».

Astara Rayon Təhsil Şöbəsinin müdir müavini Fayıq Həsənov da məsələ ilə bağlı onda məlumat olmadığını söylədi.

**«YAP-ın KİFAYƏT QƏDƏR PULU VAR»**

YAP Astara rayon təşkilatının sədr müavini Vaqif Ağayev də büdcə təşkilatlarından pul toplanmasını absurd sayır: «Düzdür, YAP-ın rayon təşkilatının yerləşdiyi bina dövlət əmlakıdır. Oradan gec-tez çıxmalıyıq. Astaradan deputat seçilmiş Aslan Ağayev də söz vermişdi ki, yerli


Vaqif Ağayev

təşkilat üçün qərargah inşa edəcək. Görünür, binanı inşa etmək qərarına gəliblər. Binanı inşa etmək üçün YAP-ın kifayət qədər pulu var. Bunun üçün kimlərdənsə pul toplamaq məntiqə sığışmır».

Astara Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Natiq İbadov isə AzadlıqRadiosuna bildirib ki, belə bir göstəriş olmayıb və bu, mümkün də deyil.

***Müstəcəb Məmmədov***

# «Eurovision» üçün 1 ilə yeni kompleks tikmək mümkündürmü?

**«EUROVISION-2012» ÜÇÜN YENİ KOMPLEKS TİKMƏK ALINMAYACAQ**

Bunu «Azadlıq» qəzetinə memar Emil Axundov deyib: «Müsabiqənin keçirilməsi üçün bütün tələblərə cavab verən yeni tikilinin bir ilə inşası bir qədər çətindir. Bu müsabiqənin müəyyən standartları olduğu üçün seçilən məkan ona cavab verməlidir. Düzdür, dəmir konstruksiyalar qurmaqla müvəqqəti konsert salonu hazırlamaq olar. Ancaq orda iştirakçıların hazırlanması üçün yer, tamaşaçılar üçünsə yeməkxana və digər labüd şəraitin təmin edilməsi vacibdir. Yəni tələblər çox böyük olduğu üçün bir ilə çatdırmaq çətindir».

Emil Axundovun fikrincə, yeganə çıxış yolu Tofiq Bəhramov adına stadionu bir il müddətinə normal vəziyyətə gətirməkdir.

*«Bizim yol» qəzeti də «Eurovision-2012» mahnı yarışmasına hazırlıqlardan yazır:*

**«EUROVISİON-2012»Nİ XARİCİLƏR HAZIRLAYACAQ**

Ölkənin tanınmış rejissor və prodüsserləri qəzetə deyiblər ki, onlara yarışmanın hazırlıqları ilə bağlı dəvət gəlməyib. Onlar hətta dəvət gəlsə, imtina edəcəklərini deyiblər. Bunu «belə möhtəşəm tədbirlər




keçirməyə» hazır olmamaları ilə izah ediblər. Mədəniyyət və Turizm Nazirliyindənsə «Bizim yol»a deyiblər ki, Təşkilat Komitəsinin toplantısından sonra bu haqda ictimaiyyətə məlumat veriləcək.

# Заявление на троих



Слева направо: **Обама, Медведев и Саркози, Довиль, 26 мая 2011**

Президенты Франции, России и США – Николя Саркози, Дмитрий Медведев и Барак Обама в ходе встречи 26 мая в рамках саммита "восьмерки" во французском Довиле сделали трехстороннее заявление по Карабахскому урегулированию. Они призвали лидеров Армении и Азербайджана "продемонстрировать политическую волю и завершить работу над Основными принципами в ходе предстоящего армяно-азербайджанского саммита в июне".

"Дальнейшее затягивание только поставит под вопрос приверженность сторон к достижению договоренностей", - говорится в совместном заявлении трех президентов - сопредседателей Минской группы ОБСЕ. "Когда договоренность будет достигнута, мы готовы засвидетельствовать формальное принятие этих принципов, оказать содействие в разработке мирного соглашения и затем поддержать его выполнение совместно с нашими международными партнерами", - отмечается в заявлении.

"Мы подтверждаем, что только урегулирование путем переговоров может привести к миру, стабильности и примирению, открывая возможности для регионального развития и сотрудничества", - говорится в заявлении. Обама, Саркози и Медведев "убеждены, что пришло время всем сторонам Карабахского конфликта сделать шаг к мирному урегулированию".

Предыдущий саммит "восьмерки" прошел 25-26 июня 2010 года в канадском Хантсвилле. Тогда три президента – руководители государств-сопредседателей Минской группы ОБСЕ – также приняли совместное заявление по Карабахскому конфликту.

# Жена Муамара Каддафи дала телефонное интервью CNN

Жена ливийского лидера Муамара Каддафи в пятницу осудила рейды авиации НАТО, которые привели к гибели её сына Саифа аль-Араба.

В телефонном интервью американской компании CNN София Каддафи сказала, что хотела бы находиться со своим сыном в минуты его гибели. Она рассказала, что сын никогда не пропускал вечерней молитвы, и удары наносились именно в это время.

София Каддафи заявила, что страны НАТО "совершают военные преступления" в её стране, убивая мирных жителей.

# Самый высокий флагшток в мире теперь в Душанбе

24 мая в Душанбе поднят государственный флаг Таджикистана на самом высоком в мире флагштоке. 165-метровый флагшток установлен около Дворца нации. Ширина самого флага составляет 30 метров, его длина – 60 метров. Установкой самого высокого в мире флагштока занимались специалисты международной компании Trident Support - единственной в мире компании, которая имеет опыт в строительстве рекордно высоких флагштоков.

До 24 мая самым высоким флагштоком в мире считался флагшток, установленной на Площади флага в столице Азербайджана Баку, высота которого 162 метра.



Национальный флаг Таджикистана

Флаг на Площади флага в Азербайджане имеет размеры: 35 метров в ширину, 70 метров в длину, и обошелся государству, по неофициальным данным, почти в 24 млн. долларов.



Анастасия Кириленко

# Быть геем у себя в квартире

"Я против гей-прайдов. Геем быть можно - в собственной квартире - и незачем выносить подробности своей кроватной жизни на публику" - сказала, как отрезала, моя однокурсница.

Я предлагаю экстраполировать эту не новую, но очень многими разделяемую мысль: "Бороться за мигалки можно. У себя дома. Незачем выносить свои требования на улицу".

"Бороться за отмену льготного проезда в электричках нужно обязательно . Только незачем лезть с этим на публику".

"Бороться за свободу слова можно, только незачем кричать об этом в мегафон…."

Почему-то публике совершенно очевидно, что "синие ведерки" борются не за право ходить по улице с ведром на голове, а за то, чтобы со спецсигналами не ездили все, кому не лень, создавая опасность на дорогах. Участники акций протеста оппозиции тоже, вроде, собираются не просто так. Они добиваются демократических преобразований в стране.

И только у геев не бывает никаких проблем и требований - они собираются, чтобы собраться. Им нужно просто себя показать. Неужели права геев нарушаются? Да бросьте!

Ну, где-то их увольняют с работы за выдающую их моторику - под предлогом несоответствия чзанимаемой должности; где-то бьют, где-то даже убивают по мотивам ксенофобии. Ну "так ведь нам всем сосульки на голову падают". Такие, или подобные аргументы выдвигают люди, начиная фразу со слов "я не гомофоб, но…" Помните такое: "я не против негров, но у них же есть свои (отдельные) писсуары".

Обидно, что даже российская демократическая оппозиция не спешит объединяться с гей-активистами. А ведь они первыми добились решения Европейского суда о незаконности запрета мирной демонстрации. И это решение тоже можно было экстраполировать. На запрет других мирных собраний. Это я уже без всякой иронии.

*Статья отражает точку зрения автора*

# İlham Əliyev: «Korrupsiyaya qarşı mübarizə bəhrəsini verir»



**«Azərbaycanda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə gözəl nəticələrini verməkdədir». Bunu prezident İlham Əliyev «Buta» sarayında 28 May - Respublika Gününə həsr olunmuş rəsmi qəbulda deyib.**

*Onun fikrincə, korrupsiya, rüşvətxorluğa qarşı mübarizə bəhrəsini verir:* «Addımlarımız xalq tərəfindən dəstəklənir. Bir daha bu kürsüdən bəyan etmək istəyirəm ki, biz bu yoldan dönməyəcəyik. Korrupsiya, rüşvətxorluğa, xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparacağıq. Xüsusilə görəndə ki, bu mübarizə nəticə verir, bu, bizim gücümüzü daha da artırır və bizi daha da ruhlandırır».

*Dövlət başçısı bəyan edib ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi üçün əlavə tədbirlər görüləcək:* «Özəl sektorun güclənməsi isə öz növbəsində dövlət tərəfindən göstərilən dəstəyin hesabına mümkün olub. Dövlət kreditləri, güzəştli şərtlərlə verilən kreditlər, sahibkarlığa dövlət və Prezident tərəfindən göstərilən dəstək özəl sektorun möhkəmlənməsinə, güclənməsinə gətirib çıxarır. Biz o vəziyyətə gəlmişik ki, bu gün Azərbaycan şirkətləri başqa ölkələrin iqtisadiyyatına, infrastrukturuna milyardlarla dollar sərmayə qoyurlar. Beləliklə, bizim investisiya portfelimiz də çoxşaxəli olur. Bu bizə əlavə olaraq həm siyasi, həm də iqtisadi mənfəət gətirəcək».

*İlham Əliyev deyib ki, hazırda iqtisadi sahədə vacib məsələlərdən biri ərzaq təhlükəsizliyini təmin etməkdir. Prezident bildirib ki, sosial ədalət prinsipləri Azərbaycan hökuməti üçün həmişə əsas olub:*

«Maaşlar, pensiyalar mütəmadi qaydada qaldırılır, sosial infrastrukturun yaradılması üçün böyük vəsait ayrılır. Son illərdə Azərbaycanda 2 mindən artıq məktəb, yüzlərlə tibb mərkəzi, 31 Olimpiya İdman Kompleksi, mədəniyyət ocaqları tikilib. Bir sözlə, sosial blok daim diqqət mərkəzindədir. Növbəti illərdə bu sahəyə daha da böyük vəsait qoyulacaqdır və buna ehtiyac var. Çünki biz istəyirik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı sıfıra bərabər olsun. Mən bilirəm ki, hətta inkişaf etmiş ölkələrdə buna heç kim nail olmayıb. Amma biz qarşımıza hədəf qoymalıyıq. O hədəf böyük hədəf olmalıdır. Bəzi hallarda əlçatmaz hədəf kimi görünür, ancaq eyni zamanda bizdən asılıdır ki, bu fikirləri, bu arzuları reallığa çevirək və istədiyimizə nail ola bilək».

***ANS***

# Korrupsiya ilə mübarizə: nəticə varmı?

**Korrupsiyaya qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov və Azərbaycan Kommersantları və İstehlakçıları Birliyinin sədri Sevgim Rəhmanov korrupsiyaya qarşı mübarizənin nəticələrindən danışırlar.**

**"NAİLİYYƏTLƏRDƏN DANIŞMAQ ÇOX TEZDİR"**




Vasif Mövsümov

Vasif Mövsümov:

- «Korrupsiyaya qarşı mübarizəyə yekun vurulmayacaq. Bu mübarizə davamlı olmalıdır. Ona müxtəlif mexanizmlər əlavə olunmalıdır, bu mübarizə kimlərisə həbs etməklə kifayətlənən deyil. Bu mübarizənin əsas şərtlərindən biri də korrupsiya üçün şərait yaradan bir mühitin aradan qaldırılmasıdır. Yəni hər bir məmur, hər bir vətəndaş, rüşvətverən və rüşvət alanın əlindən o şərait alınmalıdır. Bu mübarizənin səmərəsi ondan sonra olacaq. Azərbaycanda bir neçə ay ərzində atılan addımlara baxaq. Hansı nailiyyət əldə olunub? Biz bu tezliklə nailiyyət əldə edə bilmərik. Lakin nəyinsə dəyişməsini görə bilərik. Biz əhalinin bir az müqavimətinin artmasını görürük. Əhali bir az ümidlənib. Lakin təəssüflər olsun ki, onların ümidlərində bir sarsıntı əmələ gəlir. Buna səbəb vətəndaşların bu gün də məmur özbaşınalığı, rüşvət halları ilə rastlaşmasıdır. Ona görə hələ ki, nailiyyətlərdən danışmaq çox tezdir...».

**"BU GÜN O PAKET SİSTEMİ ARADAN GÖTÜRÜLMƏYİB"**

Sevgim Rəhmanov:

- «Korrupsiya harada var? Səviyyəsi nədir? Nazirliklər üzrə araşdırılıbmı? Prezidentin fərmanlarından əvvəl korrupsiya haqqında qanun var idi. Ondan əvvəl isə Azərbaycanın Cinayət Məcəlləsi var. Heç yanda rüşvət almağa, korrupsiya ilə məşğul olmağa icazə verilmir. Bunlarla necə mübarizə aparmaq lazımdır? Konkret olaraq ad çəkilməlidir. Bu gün o paket sistemi aradan götürülməyib. Bu gün hər bir nazirliyin, hər bir komitənin şoferi 120-130 manat maaş alır. Bu maaşla onlar işləyə bilərmi? Bu gün ticarətdə yoxlamaların sayı azalıbmı? Əksinə, artıb. Onlardan ötən il aldıqlarından 10 -15 faiz artıq rüşvət alınır. Fakt budur. Mən istəməzdim ki, korrupsiya ilə əlaqədar Azərbaycan vətəndaşı türməyə düşsün. İşi elə aparmaq lazımdır ki, korrupsiyanı törədən səbəblər aradan qalxsın...».



Sevgim Rəhmanov

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləyin.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Hökumət Neft Fondundan daha 2.7 milyard xərcləyir

**Mayın 27-də Milli Məclis "2011-ci ilin dövlət büdcəsi haqqında" qanuna dəyişikliklər etdi. Maliyyə naziri Samir Şərifov parlamentin iclasında bildirib ki, "2011-ci ilin dövlət büdcəsi haqqında" qanuna dəyişikliklər sosial müdafiənin gücləndirilməsinə, ilk növbədə pensiya sistemində islahatların aparılmasına, büdcə təşkilatlarında çalışanların maaşlarının, sosial ödənişlərin artırılmasına yönəlib. Bununla yanaşı, dəyişikliklər bir sıra investisiya layihələrinin maliyyələşdirilməsini də nəzərdə tutur. Və bu məqsədlə ümumi xərclərin məbləği 3,1 mlrd. manatdır.**


Rəşid Şerifin karikaturası

**NEFT FONDUNDAN 2.7 MİLYARDLIQ ÖTÜRMƏ**

Dövlət büdcəsinin gəlirləri 3,5 milyard manata yaxın artırlıb. Beləliklə də, bu ilin büdcəsi 30 faizə qədər artaraq 15,5 milyard manat olub. Hökumət əlavə olunan pulun 770 milyon manatını vergilər və gömrükdən toplamağı, 2.7 milyard manatını isə Dövlət Neft Fondundan götürməyi nəzərdə tutur.

Maliyyə naziri pensiya təminatında islahatlara, eləcə də dövlət büdcəsindən maliyyələşən elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi sahəsində çalışanların, hərbi qulluqçuların, xüsusi rütbəli əməkdaşların və digər işçilərin əməkhaqqının artımına, pensiyaların, sosial müavinətlərin, təqaüdlərin artırılmasına 462.7 milyon manat əlavə pul ayrıldığını bildirir.

Bu ilin büdcəsində neftin bir barrelinin qiyməti 80 ABŞ dollarından hesablanıb. Amma əvvəlki büdcədə bu rəqəm 60 dollar idi.

**BÜDCƏNİN GƏLİRLƏRİ İLK DƏFƏ 20 MİLYARDA ÇATACAQ**

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədri Ziyad Səmədzadə dövlət büdcəsinə bu dəyişiklikləri "məcburi addım" adlandırır: "Azərbaycana pul gəlir. Biz də bir sıra layihələri icra etmək üçün Neft Fondundan vəsait götürməliyik. Bu dəyişikliklər nəticəsində dövlət büdcəsinin gəlirləri ilk dəfə 20 milyarda çatacaq".

Z.Səmədzadə bildirdi ki, bu il neftin qiymətinin bahalaşması nəticəsində Neft Fondunun gəlirləri 4 milyard dollardan çox artacaq.

Bəzi ekspertlər isə hesab edirlər ki, neftin qiymətinin bahalaşması, yaxud Neft Fonduna yığılan vəsaitlərin artması heç də əsas vermir ki, hökumət dövlət büdcəsinə ötürməklə həmin vəsaitin axırına çıxsın.

**NEFT FONDU OLMADAN DÖVLƏT BÜDCƏSİ XƏRCLƏRİN 40 FAİZİNİ ÖDƏYƏ BİLƏR**

İqtisadçı ekspert Məhəmməd Talıblı deyir ki, budəfəki dəyişikliklər də onu göstərir ki, ildən-ilə Neft Fondundan büdcəyə transfertlərin (ötürmələrin) miqyası azalmalı olduğu halda, yenə də artmaqdadır. Yəni dövlət büdcəsinə daxilolmaların həcmi artırılarkən yenə də Neft Fonduna istinad edilir. Neft Fondunun bu səviyyədə xərclənməsi isə ona gətirib çıxarıb ki, hazırda büdcənin yarıdan çoxunu həmin Fonddan götürülən pullar təşkil edir.

M.Talıblının sözlərinə görə, Azərbaycanda sənaye tikinti investisiya xərclərinin həcminə nəzər salanda görmək olur ki, iri investisiya xərcləri məhz Neft Fondu vasitəsilə maliyyələşdirilir. Sadəcə, bu pullar büdcə vasitəsilə xərclənir: "Bu onu göstərir ki, hökumət hər vəchlə neft pullarının daha sürətlə xərclənməsi istiqamətində kurs götürüb. Və bununla bağlı heç bir məhdudlaşdırıcı tədbirlərə əl atmır".

M.Talıblı müstəqil tədqiqatlara əsaslanaraq deyir ki, hazırda Neft Fondundan büdcəyə transfert olunan məbləğin cəmi 30 faizini həyata keçirmək olar. Bundan artıq həm büdcəni Neft Fondundan asılı vəziyyətə salır, həm də Neft Fondu büdcədə daha ciddi donora çevrilir. Bu həm də büdcəyə dinamik daxilolmaların həcmini azaltmaqla onu tənbəl bir alətə çevirir.

Ekspert deyir ki, Neft Fondu olmadan Azərbaycan büdcəsi xərclərin təxminən 40 faizini ödəmək qabiliyyətindədir. Neft Fonduna arxayınlaşaraq qurulan belə büdcə siyasəti düzgün deyil.

# Polkovnik-leytenanta rüşvət ittihamı ilə 9 il həbs cəzası verildi



Azərbaycan Ordusunun rüşvətxorluqda təqsirləndirilən yüksək rütbəli zabiti azadlıqdan məhrum edilib.

Gəncə Hərbi Məhkəməsindən verilən məlumata görə, Şəmkir Hərbi Birləşməsinin zabiti, polkovnik-leytenant Seymur Əyyubov rüşvət almaq, hərbi qulluqçunu təhqir etmək, özünü öldürmək həddinə çatdırmaq ittihamları ilə 9 il müddətinə azadlıqdan məhrum edilib.

Bu barədə ANSPRESS məlumat verir. Amma zabitin yaxınları və ya vəkilinin bu ittihamlarla bağlı fikirləri hələlik məlum deyil.

# "Evdən bir xəbər yoxdur"



Kür – Araz daşqınından bir il keçməsinə baxmayaraq, Azərbaycanın su basmış bölgələrində hələ də problemlər qalmaqdadır. Zərərçəkənlərdən kimi heç kompensasiya ala bilməyib, kimi hələ də evinin tikilməyini gözləyir.

**Vüsalə Əlibəylinin"Daşqından bir il sonra" reportajını AzadliqRadiosu.az-da dinləyin.**

# Avropa Birliyindən Azərbaycan kimi ölkələrə yeni yardım təklifi


Rolan Kobia

**«Yeni Avropa Qonşuluq Siyasəti çox təklif edib, çox da tələb edəcək». Bunu mayın 26-da Bakıda keçirdiyi mətbuat konfransında Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Rolan Kobia deyib.**

Mayın 25-də Avropa Birliyi yeni Avropa Qonşuluq Siyasəti proqramını açıqlayıb. Bu proqramda ölkələrdən azad seçki, sərbəst toplaşma, azad mətbuat və idarəetmədə irəliləyiş istənilir.

«Biz Avropa Qonşuluq Siyasəti proqramında iştirak edən ölkələrdə siyasətimizi tərəqqiyə uyğun olaraq müəyyənləşdirəcəyik. Ölkə nə qədər çox demokratik dəyərlərə cavab verəcəksə, Avropa İttifaqından o qədər çox maliyyə və siyasi dəstək alacaq», - deyə R. Kobia bildirib.

**AVROPA BİRLİYİNİN «ÇOXA-ÇOX, AZA-AZ» PRİNSİPİ**

Səfir deyib ki, bu proqram «çoxa çox, aza az» prinsipi ilə həyata keçiriləcək. Bu o deməkdir ki, Avropa Birliyi yardımları istədiyi vaxt çoxalda, azalda və ya tamamilə dayandıra bilər. Yeni Qonşuluq Siyasəti çərçivəsində ayrılacaq yardım 1.2 milyarddan artıq olacaq. Avropa Qonşuluq Siyasəti 2004-cü ildən həyata keçirilir. Proqrama Azərbaycanla yanaşı, 16 ölkə daxildir.

**«AZƏRBAYCANI LİVİYA, YAXUD TUNİSLƏ MÜQAYİSƏ ETMƏK OLMAZ»**

«Yaxın Şərqdə baş verən hadisələr fonunda Avropa İttifaqı Azərbaycanda demokratiyanın inkişafında tərəqqiyə nail olmaq üçün hansı dəstəyi verə bilər» sualını cavablandıran R. Kobia müqayisəni yanlış adlandırıb: «Azərbaycanı Liviya, yaxud Tunislə müqayisə etmək olmaz. Hər bir ölkənin öz xüsusiyyətləri var. Avropa İttifaqı və beynəlxalq birlik Yaxın Şərqdə baş verənlərdən öz dərsini alıb. Azərbaycan da baş verənlərdən müəyyən nəticələr çıxarıb. Bunu ölkədə korrupsiyaya qarşı tədbirlərə əsasən söyləmək olar. Biz bu tədbirləri dəstəkləyirik».

***Maarif Çingizoğlu***

# Norveç şahzadəsi Bakıya niyə gəlir?



Şahzadə Haakon Magnus

**"Biz şahzadənin Bakıya səfərinin əleyhinə deyilik, amma istəyirik ki, o, səfəri zamanı Azərbaycanda insan haqlarının vəziyyəti haqda da danışsın". Bunu AzadlıqRadiosuna müsahibəsində Norveç Helsinki Komitəsinin sədri Berit Lindeman deyir.**

Norveç şahzadəsi Haakon Magnus iyunun 6-7-də Xəzər Neft-Qaz Sərgisində iştirak etmək üçün Bakıya gəlməlidir. Norveçin Helsinki Komitəsi kral sarayına məktub yazaraq öz təkliflərini irəli sürüb. Komitə hesab edir ki, şahzadənin insan haqlarının kobud şəkildə pozulduğu bir ölkəyə səfər etməsi və həmin pozuntuların aradan qaldırılması üçün mövqe bildirməməsi düzgün olmaz:

- Bizə verilən məlumata görə, şahzadə Bakıda neft-qaz sərgisində iştirak edəcək. Və onun mülki cəmiyyət nümayəndələri ilə də görüşəcəyi haqda xəbər var. Biz indi "mülki cəmiyyət" deyiləndə kimlərin nəzərdə tutulduğunu araşdırmağa çalışırıq. Qeyd etmək istərdim ki, Norveç Konstitusiyasına görə, kral ailəsinin üzvləri siyasətə qarışa bilməz. Onların ölkənin idarə olunmasındakı rolu simvolik olsa da, kral ailəsi üzvlərinin hansısa ölkəyə getməsi həm Norveçdə, həm də onların səfər etdikləri ölkədə kifayət qədər böyük maraq doğurur. Biz istərdik ki, şahzadə öz səfərini yalnız iqtisadi mövzularla məhdudlaşdırmasın.

Məsələn, Noveçin neft naziri Azərbaycana gedəndə biz daim ona Azəbaycanda insan haqlarının vəziyyəti ilə bağlı məlumatlar göndəririk və Azərbaycan rəsmiləri qarşısında müəyyən məsələləri qaldırmağı xahiş edirik. Bəzən onlar bunu edirlər, bəzən isə yox. Amma bu, başqa bir söhbətin mövzusudur. Məsələ burasındadır ki, şahzadənin səfəri məsələsində iki problem var. Əvvəla, neytral statusu onun siyasi problemlərlə bağlı məsələləri qaldırmaq imkanını məhdudlaşdırır. Digər tərəfdən, şahzadə güman ki Bakıda prezident İlham Əliyev və birinci ledi ilə görüşəcək. Onların görüşlərindən çəkilmiş birgə şəkilləri yayımlanacaq. Bu isə beynəlxalq səviyyədə Əliyev rejimi haqda müsbət rəy yaratmağa xidmət etmiş olacaq. Bizim təşkilat hesab edir ki, Əliyev rejimi buna layiq deyil. Xüsusən də müxalifətçilərin və gənc fəalların həbs edildiyi indiki şəraitdə.

Onu da qeyd edim ki, Misirdə inqilab başlayanda Norveçdə bir çoxlarının yadına vaxtilə Norveç kraliçasının oraya səfər etməsi, prezident Mübarək və birinci ledi ilə görüşməsi düşdü. Düzdür, bildirilmişdi ki, kraliça oraya Norveç-Misir mədəni əlaqələrinin inkişafı üçün gedib.


Berit Linderman

Amma xalqın Misir diktatoruna etiraz etdiyi bir məqamda kraliçanın əvvəllər oraya səfər etmiş olması faktının ortaya çıxması kral ailəsinin imici üçün yaxşı deyildi. Biz şahzadəyə xəbərdarlıq edirik ki, eyni hal Azərbaycanla bağlı da yarana bilər.

***Rövşən Qənbərov***

# Daşkəsəndə vergi müfəttişinin “kod” əməliyyatı




Vergi müfəttişinin kassa aparatına müdaxiləsi qanunsuzdur

**«GƏLDİ, KASSA APARATINI DA KODA SALDI GETDİ»**

*«Azər adlı vergi müfəttişidir, gəldi, dedi razılıq ver, qol çək, sənə 400 manat cərimə yazım. Razılaşmadım. Kassa aparatının da dilini bilmir. Saldı koda getdi, indi bilmirəm hara zəng edim, sözümü kimə deyim».*

Daşkəsən sakini Gülnar Həsənova AzadlıqRadiosunun «Qaynar xətt»inə şikayət edib ki, vergi müfəttişləri ona mağazasında rahatlıq vermirlər. Deməsinə görə, mağazanın qohum-qonşuya nisyə dəftəri ilə xidmət göstərməsi azmış kimi, vergi orqanının əməkdaşları qazandığını əlindən almaq istəyirlər: «Əllərində kağızlar gətirib, o kağızlarda da onlara aylıq pul verməyənlərin adlarıdır. Gəlib ki, sənə cərimə yazmalıyam. Deyirəm gəldin məni tutdun ki, mən alver elədim, çek vermədim? Deyir yox. Deyirəm bəs bunu nəyə görə mənə yazmalısan?».

Mağaza sahibi deyir ki, vergi işçisi mağazanın kassa aparatına da müdaxilə edib və aparatı koda salıb.

**«MƏN TƏK CANIMLA SİZİN ÜÇÜN İŞLƏMƏLİYƏM?»**

« İndi gərək kassa aparatına görə bir də Gəncəyə gedəm. Vergi müfəttişinin adı Azərdir, Gəncədən gəlir, Daşkəsən üzrə müfəttişdir. Dağlıq rayondur, işləyən obyekt yoxdur, hamı bir-birini tanıyır, camaat hər şeyi gəlib nisyə alır, təqaüd alandan alana verir borcunu. Belə zülm olar? Deyirəm mən tək canımla sizin üçün işləməliyəm? İki yetim saxlayıram».

*Hüquqşünas Namizəd Səfərov deyir ki, vergi müfəttişi istənilən obyektə rəsmi yoxlama qərarı ilə getməlidir. Hüquqşünasın deməsinə görə, vergi müfəttişinin kassa aparatına müdaxiləsi isə qanunsuzdur:* «Vergi orqanı işçisinin yoxlama apardığı mağazada kassanı işə salmaq, yaxud onu bağlamaq hüququ yoxdur. O, həqiqətən də həmin istehsal sahəsində qanun pozuntusu, vergidən yayınma halı aşkar edibsə, həmin istehsal sahəsinin fəaliyyətini dayandıra bilər. Bu da yalnız məhkəmənin qərarı ilə ola bilər. Sahibkar vergi işçisinin qanunsuz tələbləri, yaxud kassa aparatına qanunsuz müdaxilə barədə inzibati iqtisad məhkəmələrinə müraciət edə bilər».

Vergilər Nazirliyi mətbuat xidmətinin əməkdaşı Şahin Məmmədov isə AzadlıqRadiosuna bildirdi ki, kiçik sahibkar Gülnar Həsənovanın şikayəti ilə bağlı araşdırma başlayıb: «Nəticəsi barədə məlumat verəcəyik».

***Esmira Cavadova***

# Dördüncü sinif imtahanında rüşvət iddiası

**Hökumətin korrupsiya ilə mübarizə kampaniyası səngiməmiş orta məktəblərdə pul yığılmasına dair şikayətlər gəlir. Bu dəfə AzadlıqRadiosunun "Qaynar xətt"inə Bakı şəhəri Nizami rayonu 220 saylı orta məktəbin valideynləri şikayətçi düşüb. Zəng edib adını deməyən valideyn iddia edir ki, məktəblərdə dördüncü siniflərdən imtahanqabağı pul yığımına başlayıblar. Yüksək qiymət almaq üçün hər şagird 50-100 manat arası pul verməlidir.**

**«DÖRDÜNCÜ SİNİFDƏ NƏ İMTAHAN»**

- «Uşağım indi 4-cü sinifdə oxuyur. İlk dəfədir ki, imtahan verəcək. Amma müəllimə bütün şagirdlərdən imtahandan yüksək qiymət almaq üçün pul yığır. Mən də vermədim, düşündüm ki, dördüncü sinifdə imtahanlardan pulla keçəcəksə, onun aldığı təhsil mənə lazım deyil. Riyaziyyatdan ilboyu «4-5» qiymətlərlə oxuyan uşağa «iki» veriblər. Müəlliməsi də açıq- aydın deyir ki, bizlik heç nə yoxdur. Direktora pul verənlərin siyahısı gedir, direktor özü pul verməyənlərə «iki» yazır».

Valideyn deyir ki, həmin məktəbdə korrupsiya ilə bağlı dəfələrlə həm Təhsil Nazirliyinin, həm də Təhsil İdarəsinin “Qaynar xətt" telefonlarına zəng edib, şikayətlərini bildiriblər. Amma heç bir nəticəsi olmayıb: «Yalançı kampaniyadır, reklamdır ki, guya rüşvətlə mübarizə aparırlar. Əgər dördüncü sinifdə pul yığırlarsa, yuxarı sinifdə nə qədər yığacaqlar? Açıq bazardır».

**«BİZİM MƏKTƏBDƏ PUL OLA BİLMƏZ!»**

*220 saylı orta məktəbin direktoru Almaz Əsgərova imtahan qabağı şagirdlərdən pul yığılması ilə bağlı məlumatları təkzib edir:* «Çünki pul yığılmaq söhbəti bu məktəbdə, ümumiyyətlə, yoxdur. Nə fond var, nə təmir. Bu məktəbdə hansı puldan söhbət gedə bilər? Təkcə ibtidai siniflərdə 800 nəfərə yaxın şagird oxuyur. Onların il ərzində əldə etdikləri bilik-bacarıqlar kiçik və böyük summativ (yekun-müəl.) qiymətlər sistemi ilə aparılır. Kiçik summativ qiymətləndirməni sinif müəllimləri, böyük summativ qiymətləndirməni



isə məktəb rəhbərliyi aparır».

**«ƏGƏR KİMDƏNSƏ PUL TƏLƏB OLUNUBSA...»**

«Şagirdlərə 15 sualdan ibarət test sualları verilib. Test yoxlamalarının keçirilməsi üçün heç kimdən bir qəpik pul yığıla bilməz. Çünki bu, məktəblər tərəfindən yox, birbaşa təhsil idarəsi tərəfindən keçirilib. Əgər bu ad altında kimdənsə pul tələb olunubsa, biz çox xahiş edirik 4410699 saylı "Qaynar xətt"-ə zəng etsinlər».

Zəminə Əliqızı bildirdi ki, övladlarının nəticələrindən narazı valideynlər Təhsil idarəsində yaradılan apelyasiya komissiyasına şikayət edə bilərlər.

***Nüşabə Fətullayeva***

# İş qurmağa asan və çətin ölkələr

**Dünyada yeni biznesə başlamaq üçün ən rahat ölkələr İndoneziya, ABŞ, Kanada, Hindistan və Avstraliyadır. Kolumbiya, Misir, Türkiyə, İtaliya və Rusiya isə innovasiya və sahibkarlığa daha az açıqdır. Belə bir nəticəyə BBC üçün sorğu keçirən GlobeScan beynəlxalq sorğu təşkilatı gəlib. 24 ölkənin 24 mindən artıq vətəndaşından soruşublar ki, ölkələrində biznesə başlamaq çətin olubmu, ölkələri yaradıcılıq və innovasiyalara açıqdırmı, sahibkarlığı dəyərləndirirmi, ideyalarını gerçəkləşdirə bilirlərmi?**




**Mayın 25-də Rusiyanın xırda biznes nümayəndələrinin etiraz nümayişi**

Nəticə belə olub ki, İndoneziya, daha sonra isə ABŞ sahibkarlıq üçün ən əlverişli ölkələrdir. Rəyləri soruşulanların əksəriyyəti – 24 ölkədən 23-də bir çoxları biznesə başlamağın onlar üçün çətin olduğunu deyiblər. Braziliyada vəziyyət daha məyusedici olub, respondentlərin 83 faizi ölkənin sahibkarlıq fəaliyyəti üçün əlverişsiz olduğunu deyib. Almanların 48, avstraliyalıların 51 və kanadalıların 55 faizi biznesə başlamağın çətin olduğunu düşünür. GlobeScan təşkilatının prezidenti Doug Miller hesab edir ki, sürətlə inkişaf edən iqtisadiyyatlarda sahibkarlıq mədəniyyəti arasında böyük fərq onların iqtisadi göstəricilərinə də təsir edə bilər, "Məsələn, pozitiv köklənmiş İndoneziyanın daha pessimist əhvalda olan Braziliyanı ötəcəyini görmək maraqlı olardı".

**TÜRKLƏR VƏ RUSLAR NİKBİN DEYİL**

Dünyanın ən böyük iqtisadiyyatına malik ABŞ və Çin (75 faizi) innovasiya və kreativlik, yəni yeni kəşflər və iqtisadi yaradıcılıq üçün ən münasib ölkələrdəndir. Türkiyə, Rusiya, Misirdə isə bu vəziyyət əksinədir. Sorğunun nəticələri göstərir ki, biznesə başlamağın çətin olduğu düşüncəsi geniş yayılmış olsa da, bütün ölkələrdə mütləq əksəriyyət yaxşı ideyaların gerçəkləşməsini mümkün sayır. Bu baxımdan indoneziyalılar daha nikbindir (79 faiz), ən az nikbinsə türklər və ruslardır.

Respondentlərdən soruşanda ki, şəxsi biznesə başlamaq barədə heç düşünüblərmi? Sənaye ölkələri ilə müqayisədə inkişaf etməkdə olan ölkələrin əhalisinin daha çox biznes qurmağa maraq göstərdiyi aydınlaşıb. Nigeriya, Keniya, Peru, Ekvador və Qana əhalisi avropalılardan fərqli biznes qurmağı daha çox istəyir. Biznesə başlamaq ideyası ən az ruslardadır (27 faiz). Digər aparıcı dövlətlərə baxanda britaniyalılar ölkələrində biznesə başlamağın daha çətin olduğunu düşünür. Əgər almanların 48, avstaliyalıların 51 faizi bu fikirdədirsə, rəyi soruşulan britaniyalıların 2/3-ü – 65 faizi biznesə başlamağın asan olmadığını deyir. Bununla belə onlar ölkələrində sahibkarlığa qiymət verildiyini hesab edir.

***Sevinc Hüseynzadə***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**

Korrupsiometr
Qapalı məqamlara açılan qapı

**Şikayətiniz, sözünüz olduqda AzadlıqRadiosunun «Qaynar xətt»inə müraciət edin:**

**Telefon: (+99412) 436-77-41 E-mail: efir@azadliqradiosu.az**
**SMS: (+99450) 744-10-17 azadliq@rferl.org**



**İlham Əliyev ailə üzvləri ilə birlikdə**

# Prezident uşaqları nə işlə məşğuldur?

**Rusiyanın həftəlik «Аргументы и Факты» qəzeti bu sayında oxucuların suallarına cavab olaraq MDB prezidentlərinin uşaqlarına dair informasiyalara cavab axtarıb.**

Azərbaycan prezidenti İlham Əliyev:

Böyük qızı Leyla Əliyeva Moskvada Heydər Əliyev Fondunu təmsil edir və "Bakı" jurnalının baş redaktorudur. Onun bacısı Arzu reklam biznesiylə məşğuldur. Prezidentin oğlu Heydər isə London kollecində təhsil alır.

Rusiya prezidenti Dmitri Medvedev:

15 yaşlı oğlu İlya orta məktəbdə oxuyur.

Ukrayna prezidenti Viktor Yanukoviç:

Oğlu Aleksandr böyük biznesmendir. Kiçik oğlu Viktor isə Ali Radada deputatdır.

Özbəkistan prezidenti İslam Kərimov:

Qızı Gülnarə - İspaniyada öz ölkəsinin səfiridir.

Qazaxıstan prezidenti Nursultan Nazarbayev:

Qızı Darqia bir zamanlar aktiv siyasətlə məşğul olub. Prezidentin ortancıl qızı Dinara atasının təhsil fonduna rəhbərlik edir. Qeyri-rəsmi məlumatlara görə isə, Nazarbayevin kiçik qızı tikinti şirkətinə başçılıq edir.

Tacikistan prezident İmomali Rahmon:

7 qızı, 2 oğlu var. Prezidentin bir qızı Düşənbənin mərkəzində butik şəbəkəsini idarə edir. Başqası – dövlət televiziyasının direktorudur. Prezidentin üçüncü qızı isə xarici işlər nazirinin müavinidir. Oğlu Rüstəm isə ölkədə gömrük xidmətlərini yerinə yetirən strukturlardan birinə rəhbərlik edir.

# Vatikanın gizli arxivində Azərbaycan haqda nə sənədlər var?



Fərid Ələkbərli

**Mayın ortalarında ölkə mediası maraqlı bir xəbər yaydı. Vatikan Məxfi Arxivlərində Azərbaycan tarixinə aid 85 sənəd aşkar olunub. AzadlıqRadiosunun «İz» proqramı bu xəbərin ardınca düşərək həmin sənədlərin ölkə tarixi və mədəniyyəti üçün önəmini açıqlamağa çalışıb. AMEA Füzuli adına Əlyazmalar İnstitutunun tərcümə və informasiya şöbəsinin müdiri Fərid Ələkbərli «İz»in suallarına cavab verir.**

- Əldə olunan nəticələr bizim özümüz üçün də gözlənilməz oldu. Reaksiya da təbii idi. Biz özümüz orada Azərbaycana aid materiallar tapacağımızı gözləmirdik. Xoşbəxtlikdən, biz həmin materialları tapdıq və bu, sensasion bir xəbər oldu.

**IX ƏSRDƏN BU YANA SƏNƏDLƏR VAR**

- Bu arxivdə Müqəddəs Roma Kilsəsinin- katolik kilsəsinin fəaliyyəti dövründə toplanan müxtəlif sənədlər yer alıb. Orada on minlərlə fərmanlar, məktublar, cürbəcür sənədlər var. IX əsrdən bu yana, ta bu günümüzədək yığılan arxivdir. Amma orada VIII əsrə aid də bir neçə sənəd var. Orta əsrlərdən, XI əsrdən başlayaraq Azərbaycan hökmdarları- Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu dövlətləri, İlxanilər, Səfəvilər, Əfşarlar və Qacarların Roma Papası ilə intensiv əlaqələri, yazışmaları olub. Demək olar ki, hər həftə bir-birinə məktub yazırdılar.

**PAPADAN MƏKTUB VAR...**

- Nə danışırsınız? Yəni doğrudan hər həftə yazışırlarmış?

- Hər həftə, hər həftə! Həftə olmayanda da, iki həftədən bir yüz faiz! (Gülüşmə) Məktubların hamısı qorunub. Onların arasında müttəfiqlik olub. Bir tərəfdən Venesiya Respublikası, o biri tərəfdən Papa, o biri tərəfdən də Azərbaycan Səfəviləri, xüsusən də Osmanlı dövrlərindəki müharibələr zamanı. Bu məktubların böyük çoxluğu bizim alimlərə bəlli olmayıb.

**ALBAN KİLSƏSİ TAM MÜSTƏQİLMİŞ!**

- İndi ermənilər deyirlər ki, alban kilsəsi ermənilərin təsiri altında olub, albanlar, ümumiyyətlə, olmayıb, sadəcə, ermənilərin içində bir qrup olub. Amma bu sənədlərdən məlum olur ki, alban kilsəsi tam müstəqilmiş! Özü də qriqorianlardan fərqli olaraq, ortodoks kilsəsi olub. Ərəblər Alban kilsəsini VII əsrdə yox etdilər, onu ermənilərə tabe etdirdilər, çünki ermənilərə daha çox etibar edirdilər. XIX əsrin ortalarına qədər bu kilsənin qalıqları yaşadı, sonra ruslar onu ləğv etdilər və tamamilə Eçmiadzinə bağladılar.

**60 ƏLYAZMA- KİTAB TAPDIM**

- Kim var, nə var?

- Nizami, Marağayi, Füzuli, Nəsimi, Dədə Qorqud... Orta əsr müəlliflərinin 60 əsərini tapdım! Onların doqquzu Azərbaycanda heç məlum deyil. Adları hansı millətə mənsubluğunu deyir. Məsələn, Şirvanilərdir, Zəncanilərdir, Ərdəbililərdir, İrəvanilərdir, Naxçıvanilərdir. İndi onların surətləri ölkəyə gətiriləndən sonra üzərində araşdırmalar aparılacaq. Və bizim mədəniyyət və elm tariximizə yeni adlar yazılmağa başlayacaq. Bu da çox mühümdür. Çünki millətin tarixi təkcə siyasi tarixdən ibarət deyil. Ona başucalığı gətirən həm də mədəniyyət tarixidir, elm tarixidir.

**ORTA ƏSRDƏ BAZARDA QİYMƏTLƏR NECƏ OLUB?**
**QOVLUQLAR ADAM BOYDADIR**
**SƏFƏVİLƏR NİYƏ OSMANLILARA QARŞI VURUŞURDU?**

**Müsahibənin tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**

***Sevda İsmayıllı***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Aktyor İlqar Cahangirov. Ezop tamaşası zamanı**

**Anasından aldığı 5 manatla məşqə gələn aktyor**




**“Sarı gəlin” mahnısı kimindir? Türk yazarın baxışı...**



Pərviz Cəbrayıl: **"İndi hərə özü üçün bir elektron nəşriyyatdır"**




Əkrəm Əylisli: **Əgər bu əl Allahın əlidirsə, mən ondan niyə qorxmalıyam?!**



**Azərbaycan nağıllarını DİNLƏ!**

# Ölkəsində korrupsiyanın kökünü kəsən insan



Rusiya baş naziri ilə görüşən 87 yaşlı Li Kuan Yu

**«Sinqapur möcüzəsi»nin yaradıcısı və zəmanənin parlaq siyasətçilərindən, 87 yaşlı Li Kuan Yu nazir- mentor vəzifəsindən istefa verdi. Sinqapuru 30 il baş nazir, 7 il isə hökumətin məsləhətçisi kimi idarə edən Li Kuan Yu «gənclərə yol vermək» üçün getdiyini söylədi. Bu illər ərzində o, Sinqapuru təbii ehtiyatları olmayan, kasıb balıqçı kəndindən çiçəklənin dövlətə çevirdi. Elə bir dövlətə ki, orda demək olar ki, korrupsiya yoxdur, əhalisi isə dünyanın ən varlı və savadlılarından hesab olunur.**

Keçən əsrin 50-ci illərində Li Kuan Yun ingilis dilini öz ölkəsində əsas dil etmək yönündə səylərə başladı. Bununla da Sinqapur böyük sıçrayış etdi. İndi sinqapurluların çoxu öz aralarında ingilis dilində danışır. İndisə Li Kuan Yu daha çox çin dilini öyrənməyin vacibliyindən danışır və onu fəal şəkildə yerli məktəblərdə tədris etdirir. Ahıl yaşlı Li Kuan Yu dünyada baş verən hər bir şeyin haqqında xırdalıqlara qədər informasiyalıdır. Əla yumor hissi ilə auditoriyanı bir andaca özünə tərəf yönəltməyi bacarır.

### KORRUPSİYA İLƏ MÜBARİZƏNİN SİRRİ

*- Siz korrupsiya ilə uğurlu mübarizlərdənsiniz. Bu nə dərəcədə yerinə yetirilməli məsələdir?*

- Biz qeyri-adi dövlətik. Bu dövlət biz hakimiyyətə gəlməmişdən qabaq kifayət qədər korrupsiyalaşmış idi. Buna qədər bizi britaniyalılar idarə edirdilər. Onlar yerli nazirlərlə hakimiyyəti bölüşürdülər və keçid dövründə onlara daha böyük səlahiyyətlər verdilər. Belə hakimiyyət ötürücülüyü zaman- zaman rüşvətlə müşayiət olundu - hədiyyələr, pullar və s. Biz hakimiyyətə gələndə buna son qoymağa qərar verdik. Başqa cür məhv olardıq. Bizim qonşularımızın böyük sərvətləri var – neft, qaz, meşə. Onların çayları və hidroelektrik stansiyaları var. Biz isə balaca adayıq. Necə xilas olmalı? Biz başqa prinsiplərlə yaşamalı idik: sən rüşvətxorsan, mən yox, sizin iqtisadiyyatınız az effektlidir, bizdə tərsinə. Sizdə yaşamaq təhlükəlidir, bizdə təhlükəsizdir. Qadın gecə saat 3-də gəzintiyə çıxa bilər, onun heç bir qorxusu yoxdur. Biz buna necə nail olduq. Hər şeydən əvvəl insanlara başa saldıq ki, biz öz yolumuzla getməliyik, yoxsa məhv olarıq.

Bizdə nə neft, nə qaz var, amma bizdə bütün regionda ən böyük neftayırma və neft-kimya kompleksi var. Bütün nəhəng şirkətlər bizdə işləyir. Niyə? Stabillik, investisiyaların qorunma qabiliyyəti, effektlilik və etibarlılıq hesabına. Mən misal gətirəcəm. 1973-cü ildə ərəb ölkələri ABŞ-ın İsraili dəstəkləməsinə etiraz edərək neft embarqosu qoydu. Bu ölkələr bir ağızdan bildirdilər ki, neft anbarlarında olan başqalarına məxsus neft əslində onlarınkıdır və onu satmaq olmaz. Mən qərara gəldim ki, əgər biz çiçəklənmək istəyiriksə, bu konfliktə qarışmaq olmaz. Mən neftçilərə zəng etdim: əgər siz işləri əvvəlki qaydada aparmaq istəyirsinizsə və əgər hesab edirsinizsə ki, ziyan hamı arasında bölünməlidir, onda hamı ancaq əvvəllər olduğu kimi aldığı hissəni alacaq və biz bu mövqeni bölüşməyə hazırıq. Onlar bunu unutmadılar.



### «ONLAR ƏMİNDİRLƏR Kİ...»

Bu gün resessiya vaxtı, Sinqapurda «ExxonMobil»-in sərmayəsi 12 milyard dollardır. «ExxonMobil»i almamışdan əvvəl isə bu məbləğ 6 milyard idi. Onlar indi əlavə 4,5 milyard sərmayə qoymaq istəyirlər, beləliklə, ümumi sərmayə 16,5 milyard dollar olacaq. Bu niyə baş verir. Onlar əmindirlər ki, biz öhdəliyimizdən çəkilən deyilik.

***«Forbes» jurnalından tərcümə edən Şahnaz Bəylərqızı***

# Müsəlmanlar tualet kağızını satışdan yığışdırtdılar



**Belçikadakı Carrefour supermarketlər şəbəkəsi «Renova» tualet kağızlarının satışını dayandırıb. Buna həmin ölkədə yaşayan müsəlmanların etirazı səbəb olub. İş orasındadır ki, «Renova» kağızlarının üzərində Zodiak işarələrinin şəkilləri əks olunub. Lakin bəzi müsəlmanlar hesab edirlər ki, Qız və Oğlaq bürclərinin təsviri ərəb dilində «Allah» və «Məhəmməd» kəlmələrinin yazılışına bənzəyir.**

Alıcılar tərəfindən açıq və rəsmi şikayət olunmasa da, Carrefour-un Belçika rəhbərliyi söz-söhbət yaranmamış müəmmalı məhsulu satışdan yığışdırmaq qərarına gəlib. Bu arada federal polis də tualet kağızının qeyri-adi dizaynı ilə maraqlanmağa başlayıb. Yerli polis bu məsələnin bəzi radikalların əlində bəhanəyə çevriləcəyindən çəkinir. Bununla belə, Molenbekin bəzi müsəlman sakinləri sayta verdikləri müsahibədə həmin məhsulda pus bir şey görmədiklərini, bu məsələnin həddən artıq şişirdildiyini bildiriblər.

**AzadliqRadiosu.az saytında daimi rubrika:**



# Televiziya tarixinin ən uğurlu "talk-show"su dayandı


Oprah Winfrey show-nun ABŞ üzrə ilk yayımı

Amerika televiziyasında ən nüfuzlu qadın hesab olunan Oprah Winfrey çərşənbə günü - 25 ildən sonra özünün məşhur şousuna - “The Oprah Winfrey Show”ya yekun vurdu. Bu veriliş televiziya tarixinin ən uğurlu talk-show-su sayılır. 57 yaşlı Oprah Winfrey diqqətini bu ilin yanvarında təsis etdiyi kabel televiziyasında cəmləyəcək. Bu kanalın adı OWN “Oprah Winfrey Network”dur.

**EVLƏRİNDƏ TELEVİZOR YOX İDİ...**

Oprah Winfrey kasıb ailədə anadan olub. Onu tək qalan anası böyüdüb. Bu ailədə televizor olmayıb. Ancaq Oprah Winfrey 19 yaşında Amerikanın ilk qaradərili xəbər aparıcısı oldu. 1984-cü ildə Çikaqo televiziyasında səhər şousuna başlayan Oprah Winfrey bu şounu iki ilə “Oprah Winfrey Show”ya çevirdi. “Oprah Winfrey Show” Amerikada ən yüksək reytinqli gündüz talk- show-sudur. Ona ABŞ-da orta hesabla 6 milyon 400 min adam baxır. Dünyanın 150 ölkəsində isə bu şounun tamaşaçılarının neçə milyon olması dəqiq məlum deyil. “Oprah Winfrey Show” 48 dəfə Emmy mükafatı alıb. Onun var-dövləti hazırda 2 milyard 700 milyon dollardır. Oprah Winfreyin yaratdığı Oprah Kitab Klubunun 2 milyon üzvü var. O, Cənubi Afrikada qızlar üçün Oprah Winfrey Liderlik Akademiyası yaradıb. Angel Network xeyriyyə şəbəkəsini də Oprah Winfrey təsis edib.

***Elxan Nəsibli***

# Ceyms Bond haqda yeni kitabın qiyməti... 1500 dollardır



Mayın 26-da Britaniyada Ceyms Bondun yeni macəralarından bəhs edən kitab satışa çıxarılacaq. Sky News xəbər verir ki, “Kart blanş”adlanan kitabın tirajı cəmi 500 nüsxədir, amma qiyməti 1000 funt-sterlinqdir (təxminən 1500 dollar). Kitab kolleksiyaçılar üçündür və çox nəfis tərtibatda çap edilib. Üz qabığı bahalı ağ dəridən olan kitab cilalanmış alüminium korpusa yerləşdirilib. Kitabın hər səhifəsi 9 mm-lik güllə ilə “deşilib”. Kitabın müəllifi isə Amerika yazıçısı Jeffery Deaver-dir. O, Ceyms Bond obrazının yaradıcısı və onun haqda kitabların müəllifi olmuş Ian Fleming-in işini davam etdirəcək. Ceyms Bond haqda kitabların müəllifi Ian Fleming (1908-1964) 2-ci Dünya müharibəsi zamanı Britaniya kəşfiyyatında çalışıb. Zadəgan ailəsindən olan və heç bir maddi sıxıntı keçirməyən Fleming 44 yaşında bədii yaradıcılıqla məşğul olmağa başlayır və 14 kitab, o cümlədən Bond haqda romanlar yazır. Bond haqda çəkilmiş filmlər yazıçının ailəsinə milyonlarla dollar gəlir gətirib.

***Rövşən Qənbərov***

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar













# “Simsiz teleqraf”

## Tələbə həyatı




12.04.2011. Yükləyīb: Fīrəngīz

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

<u>efir@azadliqradiosu.az</u>

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**HotBird 13$^{0}$E**

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

**24 saat**

**TÜRKSAT 42$^{0}$ E**

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu Video/Foto

# "Multimedia"




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz